***❒ 18 oktyabr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri – dövlət müstəqilliyimizin bərpası günüdür. Azərbaycanın dövlət müstəqilliyi tarixi nailiyyətimiz və ən qiymətli sərvətimizdir. XX ərin sonlarında SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etdi və 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd – Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Müstəqilliyimizin bərpası respublikamızın Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını ümumxalq ifadəsi ilə təsdiqlədi. XX əsrin sonlarında ikinci dəfə əldə etdiyimiz müstəqillik əsrlər boyu xalqımızın şüurlarda yaratdığı “İnsan üçün azadlıqdan, dövlət üçün isə müstəqillikdən böyük sərvət yoxdur” – fikrinin milli oyanışda təzahürünün nəticəsi kimi öz təsdiqini tapdı.***

**Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.**

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

# Dövlət üçün müstəqillikdən böyük sərvət yoxdur

Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsinə və zəngin təbii sərvətlərinin olmasına, tarixinin müxtəlif dövrlərində ayrı-ayrı böyük dövlətlərin müstəmləkəçilik zülmü altında yaşamağa məcbur olmasına, öz sərvətlərinə tam şəkildə sahib olmaq imkanından məcburən məhrum edilməsinə baxmayaraq, xalqımız həmişə azadlığa, müstəqilliyə qovuşmaq üçün mübarizə aparmışdır.

Ötən əsrin əvvəlində – 1918-ci il mayın 27-də Zaqafqaziya Seyminin Tiflisdə keçirilən fövqəladə iclasında müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan edərək, ölkənin Milli Şura və müvəqqəti hökumət tərəfindən idarə olunacağını bəyan etdi. Müstəqil Azərbaycan Respublikasının yaradılması ilə əlaqədar qəbul olunmuş 28 May 1918-ci il tarixli İstiqlal Bəyannaməsində tam müstəqil, bütün millətlər, xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışan, xalqı suveren hüquqlara malik, öz sərhədləri daxilində millətindən, dinindən, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, vətəndaşların vətəndaşlıq və siyasi hüquqlarını təmin edən, onların azad inkişafı üçün geniş imkanlar yaradan dövlətin qurulması bütün dünyaya bəyan edilmiş və qeyd olunan prinsiplər yeni dövlətin siyasi quruculuğunun və gələcək inkişafının əsas istiqamətləri kimi təsbit olunmuşdur.

Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Buna baxmayaraq, fəaliyyət göstərdiyi 23 ay ərzində Xalq Cümhuriyyəti müstəqil dövlətin atributlarından olan milli pul vahidini dövriyyəyə buraxmış, Dövlət Bankı yaradılmış, maliyyə-kredit, vergi, gömrük sistemi formalaşdırılmış, nəqliyyat, rabitə, poçt-teleqraf, telefon əlaqələrini nizama salmış, Milli Ordunu formalaşdırmış və xarici siyasət sahəsində dövlətin müstəqilliyinin tanınması istiqamətində mühüm əhəmiyyətli addımlar atmışdır. Qürurverici haldır ki, AXC dünyanın 23 dövləti tərəfindən tanınmışdır.

Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, fəaliyyət göstərməsini yüksək dəyərləndirmişdir: “Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddətdə həyata keçirdiyi tədbirlərlə milli dövlətçilik ənənələrimizin bərpasında böyük rol oynamaqla, çox dərin izlər buraxmış və tariximizin ən parlaq səhifələrindən biridir. Müsəlman Şərqində ilk parlamentli respublikanın Azərbaycanda qurulması həmişə azadlığa və süverenliyə can atmış, həmin bəşəri dəyərləri yüksək qiymətləndirərək, bunların uğrunda ağır qurbanlar vermiş xalqımızın arzu və istəklərinin, milli özünüdərk prosesinin ifadəsi və təntənəsi, keçdiyi mürəkkəb və şərəfli tarixi inkişafın, onun böyük mütəfəkkir və ziyalılarının müstəqil dövlət quruculuğu ideyalarının reallaşması yolunda sərf etdikləri ağır və gərgin əməyin məntiqi nəticəsi idi. Bu tarixi hadisə ilə İslam dünyasında əvvəllər mövcud olmuş bütün dövlətlərdən köklü surətdə fərqlənməklə, monarxiya və təkhakimiyyətliliyi inkar edən, dünyəvi prinsiplərə əsaslanan ilk demokratik dövlət yarandı və dünya birliyində öz tarixi yerini tutdu”.

XX yüzilliyin sonlarında SSRİ-nin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş etdiyi imkan nəticəsində Azərbaycan xalqı XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağını qaldırdı. Bu, xalqımızın siyasi tarixində XX əsrdəki ikinci parlaq qələbəsi idi. Müstəqillik hər bir dövlət üçün ən böyük sərvətdir.

1991-ci il dekabrın 29-da respublikamızda keçirilən ümumxalq səsverməsində (referendumda) bülletenə yalnız bir sual yazılmışdı: “Siz Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?”

Səsvermə hüququ olanların 95 faizindən çoxu referendumda iştirak etdi. Xalqımız yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı və bu suala “hə” dedi.

1992-ci ilin mayında Milli Məclis tərəfindən Azərbaycan Respublikasının Dövlət himni (musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadın), az sonra üçrəngli bayraq, içində alov olan səkkizguşəli ulduz təsvirli Dövlət gerbi təsdiq edildi.

“Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı” ilkin mərhələdə yalnız quru kağız olaraq qalır, respublikamız yenə də Moskvadan idarə edilir, rejim Kremlin dediyi ilə oturub dururdu.

Tarix sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Müstəqilliyi əldə etdikdən sonra xalq hər şeyə – bütün çətinliklərə, sınaqlara hazır olmalı, hər bir əziyyətə və çətinliyə dözməyi bacarmalıdır. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. İkinci tarixi imkan isə bir də 70 il sonra – SSRİ-nin süqutu ilə yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda baş verən hadisələr – anarxiya, xaos, özbaşınalıq, hakimiyyətdə birincilik davası və bunun acı fəsadları hər birimizin yaxşı yadındadır. Bir-birini əvəz edən hakimiyyət rəhbərlərini müstəqilliyimizin qorunması, əbədiyyətə çevrilməsi yox, özlərinin maddi maraqları daha çox maraqlandırırdı. Ona görə də ölkəmiz beynəlxalq aləmdən təcrid olunmuş, qarşıdurma silahlı münaqişəyə qədər yetişmişdi. Artıq Azərbaycan parçalanmaq, müstəqilliyimiz isə məhv olmaq həddinə çatmışdı. Belə bir ağır və dözülməz məqamda xalq ulu öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli lider xalqın müraciətini cavabsız qoymadı və respublikaya rəhbərlik etməyə razılıq verdi. Yalnız bundan sonra Azərbaycan müstəqillik yolunda özünün qəti və inamlı addımını atdı.

Ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi tanındı.

Ümummilli liderin müdrik və uzaqgörən idarəçiliyi sayəsində müstəqil Azərbaycan xarici siyasətində etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış etdi, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyərək, tədricən “dövlət-vətəndaş” birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrildi.

Ulu öndərin düzgün müəyyənləşdirdiyi siyasi kurs müstəqilliyimizin siyasi və iqtisadi sütunlarını getdikcə möhkəmləndirdi, Azərbaycanı beynəlxalq aləmdə demokratik, hüquqi, sivil dövlət kimi tanıtdı. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanıldı və daha da inkişaf etdirildi. Ulu öndər ömrünün qalan hisssəsini dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına və müstəqilliyimizin əbədi olmasına həsr etdi.

Ümummilli liderin miras qoyduğu müstəqil Azərbaycan möhtərəm Prezidentimiz İlham Əliyevin düşünülmüş siyasi kursu nəticəsində bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada liderdir. Azərbaycanın iştirakı və razılığı olmadan regionda hər hansı bir irimiqyaslı layihə həyata keçirilmir.

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimiz və qiymətli sərvətimizdir. Onun qorunub saxlanılması hər birimizin müqəddəs borcudur.

***Yusif AĞAYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında kafedra müdiri, fəlsəfə doktoru, dosent***